BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2013*

# JURNALİSTİKA

**UOT 7.097**

## AZƏRBAYCAN TELEMƏKANINDA TÖRƏMƏ XƏBƏR PROQRAMLARININ XARAKTERİSTİKASI

**R.A.MİRZƏYEVA**
***Bakı Dövlət Universiteti***
***ruslan_mirzayev@ yahoo.com***

*Məqalədə Azərbaycan televiziya məkanında xəbər proqramları və bu proqramlardan doğan törəmə informasiya proqramları barədə söhbət gedir. Bu istiqamətdə Azərbaycanda teleproqramların peşəkarlıq baxımından inkişaf mərhələləri təhlil edilir. Sovet dövrü və müstəqillik çağındakı informasiya proqramlarının müqayisəli təhlili aparılır, müasir xəbər proqramlarının demokratik Qərb standartlarını tətbiq yolu ilə daha mükəmməl, daha peşəkar olduğu illüstrativ faktlarla sübut edilir. Habelə məqalədə informasiya proqramlarının ana xəbər buraxılışlarından doğan törəmə proqramların nəzəri xarakteristikası mühüm yer tutur. Azərbaycan teleməkanında artıq formalaşmış AzTV, ANS TV, Lider TV və İctimai teleradionun törəmə xəbər proqramları kontent analiz yolu ilə təhlilə cəlb edilir və bu tip proqramları şərtləndirən faktorlar qeyd olunur. Maraqlı cəhət orasındadır ki, törəmə xəbər proqramları bir neçə istiqamətdən – ictimai maraq prinsipi, mövzu, obyekt, peşəkarlıq və s. cəhətlərdən təhlil edilir.*

**Açar sözlər:** Azərbaycan teleməkanı, informasiya proqramı, törəmə xəbər proqramı, kontent – analiz, ictimai maraq, özəl TV, proqram siyasəti

Özəl televiziya kanalları artıq inkişaf etmiş və inkişaf etməkdə olan bütün ölkələr üçün çox xarakterik bir TV sistemi kimi formalaşmış və formalaşmaqdadır. Tipoloji xarakterindən asılı olmayaraq qloballaşan dünyada – həm də informasiyanın qloballaşdığı beynəlxalq media mühitində rəqabətə davam gətirmək, tamaşaçı auditoriyasını müəyyənləşdirmək, reklam bazarında yerini möhkəmlən-dirmək üçün özəl telekanalların seçdiyi polifonik formatlardan başlıcası informasiya proqramlarıdır.

Nəzəri ədəbiyyatın, demək olar ki, hamısında xəbər bütövlükdə jurnalistikada olduğu kimi, televiziyanın da əsas müraciət obyektidir. “Televiziya jurnalistikasının xüsusi formatları, janrları var və telejurnalistika anlayışı daha çox onları nəzərdə tutur. Bu janrlar, bu formatlar sistemində xəbərlər mühüm əhəmiyyət kəsb edir” (9, 533). Amerika telejurnalisti Viktoriya Makkallah

Keroll göstərir ki, “televiziya xəbərləri - rəqabətdir... Telestansiyalar tamaşaçı və reklamçılar uğrunda daimi mübarizəni daha çox xəbər proqramları ilə aparırlar” (11, 11). Bu maliyyə qaynağını yalnız reklam gəlirlərindən olan özəl telekanallara daha çox aid etmək olar. Təsadüfi deyil ki, “özəl telekanalların proqram setkasında digər proqramlar gündəlik, həftəlik, aylıq yer alırsa, informasiya proqramları gündə bir neçə dəfə, bəzilərində hər saatbaşı efirə çıxır” (9, 535).

Lakin bütün bunlar üçün özəl telekanalın özünün meydanda olması gərəkdir. Azərbaycan telemühitində özəl telekanallar çoxdan fəaliyyət göstərir və ölkə müstəqilliyini əldə etdikdən sonra onların sayı xeyli dərəcədə artmışdır. Bu televiziya kanallarının bir çoxu – ANS, Lider, Space, ATV, Xəzər TV və başqaları informasiya proqramlarına xüsusi diqqət yetirir. Televiziyaya dair ədəbiyyatın birində deyildiyi kimi, “reytinqinə, auditoriyasının kütləviliyinə, operativliyinə görə informasiya proqramları televiziyada insanların daim izlədiyi verilişdir. Yeniliklər proqramı həm də TV kanalının “vizit” kartıdır” (7, 58).

Bəzi peşəkar jurnalistlər xəbəri “fərdin öz vaxtını və pulunu verməyə hazır olduğu vasitə” (14, 383) hesab edirlər. Xəbər proqramları gün ərzində baş verən olaylardan formalaşır. “Belə xəbərlər öz əhəmiyyətinə görə düzülür və ayrı-ayrı xəbər blokları ilə bütöv xəbər mənzərəsi yaradılır” (12, 8).

Azərbaycan televiziyası uzun müddət ideoloji təbliğat maşını rolunu oynadığı zamanlarda informasiya proqramlarının xarakteri, peşəkarlığı yalnız onun hakim partiyanın təbliğatı işinə xidməti ilə qiymətləndirilmişdir. Bugünkü demokratik şəraitdə isə Azərbaycan telemühiti reklam bazarına xüsusi əhəmiyyət verərək ictimai marağa xidmət edir və informasiya proqramlarında dünya təcrübəsinə əsaslanır.

Azərbaycanda demokratik mediasistem 1980-ci illərin sonundan yaranmış, 1990-cı illərin əvvəllərindən isə ümummilli liderimiz H.Əliyevin hakimiyyətə gəlişi ilə öz inkişafında yeni vüsət almışdır. O dövrdə fəlsəfi-nəzəri fikirdə qeyd olunurdu ki, “əhalinin şüurlu təbəqəsinə xidmət edən insanların təfəkkür mədəniyyətini inkişaf etdirən, həqiqətən millətin tərəqqisinə xidmət edən mətbuat, TV yaratmaq vacib bir işdir” (6, 217). Bunu nəzərə alan H.Əliyev göstərirdi ki, “müstəqil, demokratik və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur” (4, 593). Professor Səlahəddin Xəlilovun dəqiq elmi müşahidəsinə görə, “Azərbaycanda qanunçuluğun, asayişin və əmin-amanlığın bərpa olunması Heydər Əliyev hakimiyyətinin ilk ən böyük uğuru sayıla bilər. Lakin Heydər Əliyev üçün güclü dövlət məqsəd deyil, vasitədir. Azərbaycanın müstəqilliyinin təsbit edilməsi, böyük iqtisadi və sosial islahatların həyata keçirilməsi, mədəni-mənəvi quruculuq işləri üçün vasitədir. Vətəndaş cəmiyyətinin formalaşması ictimai həyatın bütün sahələrində demokratikləşmənin həyata keçirilməsi, fikir, plüralizm, söz, mətbuat azadlığına təminat verilməsi üçün ilkin şərt məhz güclü, stabil dövlətin olmasıdır. Bu proseslərin inqilabi yolla deyil, təkamüllə həyata keçirilməsi, optimal inkişaf tempinin düzgün

müəyyənləşdirilməsi böyük siyasi intuisiyaya malik şəxsiyyətin bələdçiliyi olmadan mümkün deyildir" (1, 472).

Bütün bunlar təkamüllə həyata keçirildi və Azərbaycanda stabil dövlət şəraitində plüralist bir media mühiti formalaşdı. Bu mediamühit sistemində özəl telekanalların yaranması və fəaliyyəti daha aydın hiss olunurdu. Çünki o dövrə qədər cəmi bir telekanala – Azərbaycan televiziyasına sahib olan ölkədə tamamilə yeni tipoloji xarakterə malik özəl telekanalların yaranması, sözün əsl mənasında hadisə idi.

Bu kanallar sistemində ölkədə ilk yaranan ANS özəl teleradiosu informasiya proqramlarının təqdiminə görə fərqlənir. Aydındır ki, ANS TV efirə ilk çağlarında elə xəbər proqramı ilə çıxmışdır. Yəni ki, Azərbaycan özəl TV kanalları sistemində ANS-in təcrübəsi daha böyükdür. Bu telekanal həm texniki təchizat cəhətdən, həm də peşəkar əməkdaşlar etibarilə formalaşdığı vaxtdan – yəni 1990-cı illərin ortalarından daha çox informasiya proqramlarının məzmun və formatına diqqət etmişdir. Tədqiqatçıların da fikrincə, ANS təşkil olunduğu ilk vaxtlardan informasiyaya böyük yer ayırmışdır. ANS-in xəbərlər proqramı "Xəbərçi" bu sahənin avanqardı kimi çağdaş televiziya tarixində özünəməxsus yer ala bilmişdir" (2, 175).

Xüsusi qeyd etmək lazımdır ki, jurnalistikanın Qərb standartları, onun xəbərdə dəqiq, qərəzsiz, vicdanlı, tərəfsiz və s. kimi doktrinaları telekanallar içərisində ilk dəfə "ANS"-də tətbiq olunmuş və prinsiplər həmin telekanalın yaradıcılıq şüarına çevrilmişdir. ANS daimi olaraq informasiya təqdimatında prioritet xəbəri müəyyənləşdirməyi və onu birinci sıraya qoymaq prinsipini rəhbər tutur. "Aydındır ki, xəbər proqramı üçün informasiya – yenilik iki ölçü ilə seçilir: hadisənin aktuallığı və onun ictimai maraq elementlərinin miqdarı" (9, 538). "İnsanların həyatına aid olan belə xəbərlər onların bu informasiya ilə qərar qəbul etməsinə yönəlir" (15, 37).

ANS-in xəbər proqramları ziddiyyətli, vacib ictimai problemi işıqlandırarkən xeyli dərəcədə qərəzsizlik prinsipini qoruyur. Nəzəriyyəçilər də məsləhət görürlər ki, "yayım təşkilatları qərəzsizlik doktrinasının tarazlıq tələbini yerinə yetirmək üçün vasitələr axtarıb tapmağa borcludurlar" (13, 220). ANS belə vasitələr axtarışında olur və çox zaman öz məqsədinə çatır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1998-ci il dekabrın 7-də ANS televiziyasının yaradıcı kollektivi ilə görüşündə bu kanalın xidmətlərindən, onun informasiyalarının kiminsə xoşuna gəlib-gəlməməsi məsələsindən danışarkən demişdir: "Bilirsiniz, açıq deyirəm, şəxsən mən narazı deyiləm. Sadəcə olaraq, mən istəyirəm ki, hər şey obyektiv olsun. Ümumiyyətlə, subyektivlikdən xilas olmaq asan iş deyildir. Amma mən istəyirəm ki, hamı azad olsun, hər bir mətbuat orqanı, o cümlədən televiziya, **xüsusən özəl televiziya** (kursiv mənimdir – R.M.) subyektivlikdən azad olsun. Hesab edirəm ki, siz bu sahədə çalışırsınız. Hər halda, sizin verilişləriniz artıq hörmət qazanıbdır, bizim cəmiyyətdə, kütləvi informasiya orqanları içərisində öz yerini tutubdur. Açıq deyirəm, artıq bu yeri nə siz əldən verə bilərsiniz, nə də bunu kimsə sizin əlinizdən ala bilər"

(5, 145). Ümummilli liderimizin bu qiymətindən ruhlanan telekanal əməkdaşları bundan sonra sosial problemləri işıqlandırmaq üçün gecə saatlarında efirə çıxan "İç xəbər" proqramını yaratdı. "İç xəbər" özü də yeni informasiya proqramıdır və törəmə xəbər proqramı kimi fəaliyyət göstərir. Bu proqram yalnız ölkə daxilində gün ərzində baş vermiş mühüm xəbərləri efirə çıxarır, çox zaman problemin həllini birbaşa efirdə - interaktiv üsulla həyata keçirir. Hansısa qəsəbəyə, məhəlləyə suyun, qazın verilməsindəki problemlər, qəza hadisələri, məmurların insanlara etinasızlıq faktları, bərbad yollar, məhkəmə çəkişmələri, kriminal hadisələr, cəbhə xəttinin problemləri və s. yüzlərlə məsələ xəbərdən törəmə "İç xəbər"in əsas mövzularıdır.

ANS-in informasiya proqramından doğan yeni bir törəmə xəbər proqramı artıq xeyli müddətdir ki, efirə çıxır. "Baş xəbər" adlanan bu törəmə proqram günün ən vacib xəbərini özünə əsas mövzu seçir və bu məsələni ekspertin iştirakı ilə müzakirə edir.

Telekanal Azərbaycanda ictimai maraq kəsb edən ən maraqlı hadisələr də bu törəmə proqramın predmetinə çevirir. Məsələn, erməni əsgərinin cəbhə xəttini keçməsi və bizim ordu qüvvələrinə təslim olması, Azərbaycanda Türkdilli Ölkələrin Parlament Assambleyasının keçirilməsi, dinlərarası dialoq, Gənclər Forumu, Rusiya prezidentinin ölkəmizə səfəri və s. məsələlər bu törəmə xəbər proqramında xüsusi şərh edilmişdir.

ANS-in "Növbətçi" proqramı hadisələrin operativ həllinə və ünvana çatdırılmasına xidmət edən maraqlı bir xəbər formatıdır" (3, 51).

Hər bir kanalın öz siması, hər kanalın öz veriliş düzümü var. Kanallar yeni-yeni verilişlər hazırlamaqla auditoriya uğrunda əsl rəqabət aparır. TV jurnalistika sahəsindəki tədqiqatlar arasında prof. Ə.Bağırovun proqramlaşdırma haqda nəzəri araşdırmaları bu baxımdan diqqətəlayiqdir. Lakin onun bu tədqiqatlarının 70-ci illərin praktikasına uyğun aparılmasının da nəzərə alınması vacibdir. "Proqram cəmiyyətdə TV-nin yaşaması, varlığı üçün real maddiləşdirilmiş formadır, onun açıq məişətidir" (10, 11). Əks halda TV proqram formasında mövcud deyil. Əslində proqram iş fəaliyyətinin nəticəsidir, yaradıcılıq istehsalının "maddiləşmiş məhsuludur". Bununla yanaşı gələcək "TV məhsulu" proqram digər məhsullar kimi tələbatçının (auditoriyanın) mövcudluğunu şərtləndirir, "öz publikasını yaradır, yaxud istehsal buna görə nəinki subyekt üçün predmet, həm də predmet üçün subyekt yaradır. Belə ki, məlum proqram – auditoriya bağlanması yalnız sona yetmiş dövr kimi zahirən qarşıda durur. Bu, yalnız telekommunikasiya zəncirinin bir halqası onun-açıq sahəsidir". Bu baxımdan Lider kanalı da istisna deyil. Gün ərzində 24 saat efiri müxtəlif verilişlərlə təmin etmək, müxtəlif insanların zövqünü, tələbatını ödəmək elə də asan iş deyil. Lider telekanalı bu missiyanı artıq 10 ildir ki, yerinə yetirir.

Lider televiziyasında tamaşaçı auditoriyasının müxtəlif yaş qrupları da nəzərə alınır. Artıq heç kəsə sirr deyil ki, televiziya kanalının simasını informasiya buraxılışları müəyyənləşdirir. Bu baxımdan Lider televiziyası informasiya buraxılışına xüsusi diqqət yetirir və bir gün ərzində bir neçə dəfə tamaşaçıları

respublikamızda, dünyada baş verən hadisələrlə tanış edir.

Lider TV əsas informasiya proqramı hər gün 19:00-da gün ərzində baş vermiş xəbərləri yekunlaşdırır. Bazar günləri isə "Səda-həftə" informasiya buraxılışı ilə həftə ərzində baş vermiş əsas hadisələri ümumiləşdirərək bir daha tamaşaçıya təqdim edilir.

Lider kanalının xəbər proqramından biri də "Səda"dır. Bu veriliş həftənin 6 günü, "Səda" proqramının ana buraxılışından dərhal sonra efirə gedir və günün ən mühüm hadisələrinin studiyada qonaqla müzakirəsi xarakterini daşıyır.

Azərbaycan televiziya məkanında xüsusi yeri olan Lider telekanalının "Səda" xəbərlər proqramını tamamlayan "Sədadan sonra" törəmə xəbər proqramı da özünün maraqlı cəhətləri ilə yadda qalır. "Sədadan sonra" kimi seçilmiş bu adın özü də çox uğurludur və onun yaradıcı heyəti ana xəbərdə prioritet hesab edilən olayları müzakirə müstəvisinə çıxarır. Proqramda hər hansı bir hadisəyə ekspert münasibəti əsas yer tutur. Törəmə proqram, adətən, xeyli dərəcədə siyasi mövzular qoyur və Azərbaycan dövlətçiliyinə xidməti ilə yadda qalır.

Lider TV-nin "Sitatın sonu" formatı da "Səda" proqramından dərhal sonra efirə çıxır və çox müxtəlif siyasi mövzuları gündəmə gətirir. Təəssüf ki, "Sitatın sonu" bəzi məqamlarda jurnalistin də siyasiləşməsi və qərəzli mövqeyi ilə tamaşaçını narazı salır.

Azərbaycan teleməkanında artıq 8 illik fəaliyyətini qeyd etmiş İctimai Televiziya və Radio Yayımları Şirkətinin "Carçı" informasiya proqramı hər gün bir neçə dəfə efirə çıxır. Bu xəbər proqramı ətrafında müxtəlif fikirlər var. Məsələn, TV nəzəriyyəçisi Elçin Əlibəylinin fikrincə, "İctimai Televiziyanın xəbər buraxılışları peşəkar qüsurlarla zəngindir və informasiya onun təqdimat prinsiplərinə qətiyyən uyğun deyil" (4, 175). Digər bir müəllifin fikrincə, "Carçı" xəbərlər proqramı öz sakit, haysız-küysüz üslubu, hadisələrə qərəzsiz, tərəfsiz yanaşması ilə diqqəti cəlb edir" (7, 58). Bu müxtəlif fikirlər fonunda bir də qeyd etməliyik ki, "Carçı" informasiya proqramı daha çox daxili xəbərlərə üstünlük verməklə ölkədəki əsas hadisəni özündən sonrakı "Aktual" adlı törəmə proqramda təhlil obyektinə çevirir. Bu proqramda seçkilərlə bağlı, Azərbaycan dövlətinin taleyüklü problemləri ilə bağlı, ictimai, siyasi və s. mövzular efirə çıxarılır.

Bundan başqa İTV-də "Carçı"dan dərhal sonra efirə çıxan "İqtisadiyyat xəbərləri"də törəmə xəbər proqramı kimi maraq doğurur.

Bütün bunlar göstərir ki, Azərbaycan teleməkanında törəmə informasiya proqramları artıq bir teleformat kimi qəbul olunmuş və getdikcə inkişaf etməkdədir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Heydər Əliyev və mətbuat. 4 cilddə, I c., Nurlar, 640 s.
2. Heydər Əliyev və mətbuat. 4 cilddə, III c., Nurlar, 2003, 640 s.
3. Azərbaycan oxusun. Toplayıb tərtib edən: Mikayıl Mirzə. Bakı: Azərnəşr, 2003, 472 s.

4. Elçin Əlibəyli. Televiziya nəzəriyyəsinin əsasları. Bakı: Elm, 2011, 410 s.
5. Hacıyev Ə. Azərbaycan teleməkanında xəbər proqramları. "Heydər Əliyevin jurnalistika dərsləri". BDU junalistika fakültəsinin elmi əsərlər toplusu. Bakı, 2008, 57 s.
6. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 358 s.
7. Qafarlı Ə. Televiziya jurnalistikasının əsasları. Bakı: Çənlibel, 2009, 160 s.
8. Qabiloğlu M. Azərbaycan İctimai Televiziyası. "525-ci qəzet", 21 avqust 2009.
9. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı: Zərdabi LTD, 2012, 616 s.

**Rus dilində**

10. Багиров Э., Кацев Ч. Телевидение: XX век. М.: Искусство, 1968, 316 с.
11. Кэролл В.М. Новости на ТВ. М.: Мир, 2000, 285 с.
12. Майдурова О.Ф. Информационные жанры в региональных новостных телепрограммах. Санк-Петербург, 2011, 78 с.
13. Голядкин Н.А. ТВ информация в США. М.: ИПК, 1996, 230 с.

**İngilis dilində**

14. Hiebert, Unqurait, Bonn. Kütləvi informasiya vasitələri. Bakı: Xəzər Universiteti. 2005, 450 s.
15. Mencher M. New reportinq and writinq. Dubuque WCB.1994, 37 p.

## ХАРАКТЕРИСТИКА ПРОИЗВОДНЫХ ПРОГРАММ В ТЕЛЕПРОСТРАНСТВЕ АЗЕРБАЙДЖАНА

**Р.А.МИРЗОЕВА**

**РЕЗЮМЕ**

Статья описывает новостные программы и производные информационные программы из этих программ в телепространстве Азербайджана. В этом направлении анализируются этапы развития телепрограмм в Азербайджане с учетом профессионализма. Проводится сравнительный анализ информационных программ советского и современного периодов, иллюстративно доказывается более усовершенность и профессиональность современных новостных программ с применением демократиических западных стандартов. А также в статье особое место уделяется теоретической характеристике производных программ из главных новостных передач информационных программ. Производные новостные программы уже сформировавшихся в телепространстве Азербайджана АзТВ, АНС ТВ, Лидер ТВ и Общественного Телерадио анализируются путем контентного анализа и отмечаются факторы, обусловливающие такие типы программ. Интересная черта в том, что производные новостные программы анализируются с точки зрения нескольких направлений - принципа общественного интереса, темы, объекта, профессионализма и других черт.

**Ключевые слова:** телепространство Азербайджана, информационная программа, производная новостная программа, контент-анализ, общественный интерес, частное ТВ, програмная политика

**CHARACTERISTICS OF DERIVATIVE PROGRAMS IN AZERBAIJANI TELESPACE**

**R.A.MIRZAYEVA**

**SUMMARY**

The article describes the news programs and derived information programs in the TV space of Azerbaijan. In this direction, the stages of development of television in Azerbaijan are analyzed with the account of professionalism. A comparative analysis of the information programs of the Soviet and modern periods is carried out, the perfection and more professionalism of modern news programs with the use of Western democratic standards are proved illustratively. The special attention in the article is focused on the theoretical characterization of derivative works of the main news broadcasts of news programs. Derivative news programs of AzTv, ANS TV, Lider TV and the Public Teleradio already emerged in Azerbaijan telespace are analyzed by content analysis and the factors that contribute to these types of programs are highlighted. An interesting feature is that the derivative news programs are analyzed from the point of view of different directions - the principle of public interest, themes, objects, professionalism, and other features.

**Keywords**: TV space of Azerbaijan, news programs, derivative newscast, content analysis, public interest, private TV, Program Policy